BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2013

UOT 94 "19/..."

# TÜRKİYƏ-İSRAİL MÜNASİBƏTLƏRİNİN TARİXİ VƏ ABŞ

**A.Z.ABBASOVA**
***Bakı Dövlət Universiteti***
***aytan_abbasova@mail.ru***

*"Türkiyə-İsrail münasibətlərinin tarixi və ABŞ" mövzusunu əhatə etmiş məqalə dünyanın geostrateji cəhətdən əhəmiyyət kəsb edən, əsas regionlardan sayılan, Avropa, Asiya və Afrika qitələrinin qovşağında yerləşən, bu qitələrlə bağlı olan quru, hava və dəniz yollarının ərazisindən keçdiyi Yaxın Şərq regionunun əsas güc mərkəzlərindən sayılan Türkiyə ilə İsrail arasındakı münasibətlərin tarixini və ABŞ-ın bu münasibətlərə təsirinin araşdırılmasını nəzərdə tutmuşdur. Belə ki, dünya siyasətində öz maraqlarını diqtə edən və müasir dövrümüzün fövqəldövləti sayılan Amerika Birləşmiş Ştatları Yaxın Şərq regionundakı müttəfiqlərinə – Türkiyə və İsrailə münasibətdə balanslaşdırılmış siyasət yürütməyə çalışır. Beləliklə, məqalədə, Türkiyə-İsrail münasibətlərinin tarixi və Yaxın Şərq regionunda öz geostrateji maraqlarını diqtə etməyə çalışan ABŞ-ın hər iki dövlətə münasibətdə həyata keçirdiyi siyasətin əsas istiqamətləri işıqlandırılmışdır.*

**Açar sözlər:** Türkiyə Cümhuriyyəti, İsrail, Amerika Birləşmiş Ştatları, Yaxın Şərq münaqişəsi, qarşılıqlı münasibətlər

Bəşər tarixinin ən önəmli səhifələrindən birini təşkil edən, beynəlxalq təhlükəsizliyə və qarşılıqlı əməkdaşlığa yeni istiqamət verən II Dünya müharibəsinin başa çatması həm də dünya xəritəsində yeni fövqəldövlətlərin müəyyən edilməsinə şərait yaratmış, hələ müharibə dövründə faşist blokuna qarşı təşkil edilimiş Antihitler koalisiyasına rəhbərlik edən ABŞ və SSRİ-nin müharibə bitdikdən sonra da öz hakim mövqelərini qoruyub saxlamağa, daha çox təsir zonalarına yiyələnməklə bu mövqe və qüdrətlərini möhkəmləndirməyə yönəlmiş siyasət yeritməyə başlamasına səbəb olmuşdu.

Fövqəldövlətə və əsas güc mərkəzinə çevrilmək, dünya siyasətinə təsir etmək imkanına malik olmaq, öz maraqlarına cavab verən siyasəti diqtə etdirmək üçün həm ABŞ-a, həm də SSRi-yə geostrateji cəhətdən dünya xəritəsində önəmli mövqeyə malik dövlətləri, daha dəqiq desək, regionları öz təsir dairələrinə salmaq həmişə olduqca vacib hesab edilmişdir. Bu cür əhəmiyyətli zonalardan biri də Yaxın Şərq idi.

Avropa, Asiya və Afrika qitələrinin qovşağında yerləşən, bu qitələrlə bağlı olan quru, dəniz və hava yollarının ərazisindən keçdiyi Yaxın Şərq regionu strateji və siyasi əhəmiyyətli zona olmaqla yanaşı, ABŞ-ın əsas

platsdarmlarından birinə çevrilmişdir. Belə ki, bu regiondakı təsir gücündən bəhrələnərək, beynəlxalq vəziyyət gərginləşəcəyi təqdirdə öz hərbi strukturlarını və siyasi gücünü nümayiş etdirmək niyyətində olan ABŞ, hətta mümkünsüzü də mümkün etmək məqsədini qarşısına qoymaqla "Soyuq müharibə"nin başlanmasından dərhal sonra bu regionu təsir dairəsinə çevirmək üçün böyük səylə fəaliyyətə başlamışdı.

Qərbi Avropadan Hind okeanına Suveyş kanalı vasitəsilə ən qısa dəniz yolunun ərazisindən keçdiyi, dünya neftinin 2/3-nin cəmləşdiyi Yaxın Şərq regionu ABŞ üçün ilk öncə coğrafi mövqeyi və strateji üstünlükləri baxımından əhəmiyyətli olmuşdur. Belə ki, Afrika qitəsinə ən yaxın region olmaqla yanaşı, Yaxın Şərqin ərazisindəki neft ehtiyatları da Qərbi Avropanın sənaye şəhərlərinə və önəmli dəniz donanmalarının yerləşdiyi zonalara əlverişli mövqedə yerləşmişdir.

Bütün bu və digər səbəblər baxımından dünyanın güc mərkəzinə çevrilməyə çalışan ABŞ üçün Yaxın Şərq regionunu təsir dairəsinə salmaq II Dünya müharibəsindən sonra əsas amala çevrilmişdi. Bu məqsədini həyata keçirmək üçün isə ona sözügedən regionda bir forpost, Platsdarm yaratmaq lazım idi ki, bu dayaq nöqtəsi də məhz İsrail dövləti olmuşdur.

Birləşmiş Ştatlarla İsrail arasında siyasi münasibətlərin kökü yəhudi dövlətinin ABŞ üçün geostrateji cəhətdən əlverişli regionda yerləşməsi ilə yanaşı, digər vacib ünsürlərə də əsaslanmışdır. Belə ki, Yaxın Şərq regionunda İsrail dövlətinin qismində özünə dayaq nöqtəsi yaratmış ABŞ yəhudi dövlətinə hərbi və iqtisadi cəhətdən hər cür yardım və dəstək göstərməklə özündən asılı vəziyyətə salmışdısa, Birləşmiş Ştatlar administrasiyası və siyasi elitası da müəyyən baxımdan İsrail dövlətindən, daha dəqiq desək, Amerikanın siyasi səhnəsində dərin kök salmış və önəmli söz haqqına malik olan yəhudi lobbisindən hər daim asılı olmuşdur. Beləliklə, bu iki dövlətin bir-birindən əlaqələri zaman qarşılıqlı mənafeyə və asılılığa xidmət etmişdir.

Yaxın Şərq regionunun digər önəmli fiqurlarından biri də məhz Türkiyə dövlətidir. Belə ki, əsas etibarilə geostrateji və coğrafi mövqeyi baxımından dünya ölkələrinin, xüsusilə də Qərbin diqqət mərkəzində olan bu dövlətin neft tranziti üçün əsas boğazlar sayılan Bosfor və Dardanel boğazlarına malik olması, Şərqlə Qərbin, daha doğrusu Avropa və Asiyanın qovşağında yerləşməsi, dörd dənizlə (Qara, Aralıq, Egey və Mərmərə dənizləri ilə) əhatələnməsi Türkiyənin inkişafına və siyasi arenada xüsusi söz haqqına malik olmasına şərait yaratmışdır. Bu baxımdan Türkiyə özünün də sıx bağlı olduğu Yaxın Şərq regionunda baş verən hadisələrə, ərəb dövlətləri ilə İsrail dövləti arasında yaranan konfliktə və Fələstin probleminə heç bir zaman biganə qalmamış, bölgədəki xüsusi mövqeyindən və siyasi gücündən istifadə edərək, sözügedən məsələlərə öz münasibətini bildirmişdir. Lakin bu, müxtəlif tarixi mərhələlərdə özünü müxtəlif səpkidə göstərmişdir; bəzən yumşaq şəkildə, bəzən isə sərt siyasi addımlarla özünü büruzə vermişdir.

*****

Türkiyənin Yaxın Şərq münaqişəsinə münasibətinə aydınlıq gətirərkən, əlbəttə ki, bu münaqişə zəminində onun bu konfliktin əsas fiqurlarından biri

sayılan İsraillə də ikitərəfli və qarşılıqlı əlaqələrini də tədqiq etmək olduqca vacibdir. Belə ki, 1948-ci ilin mayında istiqlaliyyətini elan edən “İsrail dövlətini rəsmən tanıyan 31-ci dövlət olan Türkiyə (28 mart, 1949), bununla belə müsəlman ölkələri içərisində bu ölkəni tanıyan və onunla əvvəlcə, 1950-ci ilin yanvarında Tel-Əvivə attaşe göndərilməsi ilə, daha sonra həmin ilin martında Seyfullah Ersinin fövqəladə səfir qismində İsrailin paytaxtına göndərilməsi ilə rəsmi münasibətlər quran ilk dövlət olmuşdur”[6]. Sözügedən tarixi zaman kəsiyində ABŞ istisna olmaqla digər dünya dövlətlərinin məsafəli şəkildə əlaqə qurduğu, əzilən xalqların isə nifrət bəslədiyi İsraillə Türkiyənin bu cür təmaslar qurmasının da əsas səbəbkarı, əlbəttə ki, məhz Birləşmiş Ştatlar idi.

Amerikan imperializmi Yaxın Şərq regionunda əsas güc mərkəzinə çevrilmək üçün geostrateji cəhətdən olduqca önəmli mövqeyə malik olan Türkiyəni bölgədəki platsdarmı rolunu məharətlə ifa edən İsraillə münasibətlər qurmağa bir növ vadar etmişdi ki, bunun da ən əsas səbəbləri Birləşmiş Ştatların o dövrkü ən qatı düşməni sayılan SSRİ-yə və sözügedən (Yaxın Şərq) regionunda baş verən beynəlxalq və regional mücadilələrə qarşı bu iki dövlətin ittifaqını qurmaq və möhkəmləndirmək idi. Bu siyasət özünü 1950-ci illərin II yarısından sonra daha açıq surətdə göstərmiş oldu. Onu da qeyd etmək lazımdır ki, Türkiyə dövlətinin də İsraillə münasibətlər qurmasının özünəməxsus səbəbləri var idi. Osmanlı dövlətinin xələfi sayılan Türkiyə, parlamentli respublika kimi istiqlaliyyətini elan etdikdən sonra çoxəsrlik imperiyanın dağılması ilə bir sıra problem və çətinliklərlə üzləşmişdir ki, bunlar arasında erməni və kürd problemlərini, daha sonra isə Kipr məsələsini misal göstərmək olar. Belə olan təqdirdə Türkiyə Cümhuriyyəti problemləri həll etmək üçün ən böyük dəstəyi güclü dövlətlərdən, xüsusilə də, ABŞ-dan almağı düşünürdü. BŞ administrasiyasının fəaliyyətinin əsasını 3 əsas lobbinin təşkil və idarə etdiyini nəzərə aldıqda isə Türkiyə siyasi xadimlərini yunan və erməni lobbilərinə qarşı yəhudi lobbisinin dəstəyini almaq istəmə səbəblərini və bu baxımdan da İsrail dövləti ilə əlaqələri dərinləşdirmək niyyətlərini daha yaxşı başa düşmək olur.

Türkiyə-İsrail ikitərəfli əlaqələrini türk torpaqlarında yəhudilərin mövcudluğunun bir parçası olaraq düşündükdə isə bu tarixin daha öncələrə, XV əsrə gedib çıxdığı məlum olur. “Belə ki, hələ 1491-ci ildə 200000-dən çox yəhudi İspaniyadan çıxarıldığı zaman Osmanlı imperiyası bu insanları öz torpaqlarında məskunlaşdırmış və xüsusilə də XVI əsrdən başlayaraq yəhudi mənşəli şəxslər Osmanlı sarayında həkim, diplomat və bankir vəzifələrini tutmuş, ticarət və sənaye sahələrində həmişə ön planda olmuşdular” [2, 683].

Soyuq müharibə illərində Qərbin müttəfiqi sayılan Türkiyə yuxarıda qeyd edilən səbəbləri də göz önünə alaraq, İsraillə münasibətlərini qoruyub-saxlamağa, inkişaf etdirməyə çalışmış, lakin bununla belə Yaxın Şərq münaqişəsi dini baxımdan çox yaxın olduğu müsəlman ərəb dövlətləri ilə əlaqələri kəsməməyə, onlara haqsızlıq etməməyə və bu çətin problemdə dəstək almağa çalışırdı. Belə ki, Türkiyə hakim dairələri hər fürsətdə beynəlxalq məsələyə çevrilmiş bu konflikti hər iki tərəf üçün əlverişli şəraitdə həll etməyə yönəlik

təkliflər verirdi. Məsələn, “1954-cü ilin iyununda ABŞ-a səfər edən Türkiyə baş naziri A.Menderes burada etdiyi çıxışda ərəb dövlətlərini İsrailin istiqlaliyyətini tanımağı, 1955-ci ildə Bağdad paktı qurularkən isə İsrailin 1947-ci il sərhədlərinə qayıtması müqabilində (amma İsrail bunu qəbul etməmişdi) onu da pakta dəvət etməyi təklif etmişdi” [3].

Türkiyə ilə İsrail arasında ilk böyük gərginlik 1956-cı ildə İsrail, İngiltərə və Fransanın Misirə hücum etdiyi “Süveyş böhranı” zamanı yaranmışdı. Bu zaman da Türkiyə hökuməti İsraildən 1947-ci il sərhədlərinə geri çəkilməyi tələb etmiş, eyni zamanda İsraili ərəb ölkələri ilə əlaqələr qurmağa təhrik etmişdi. “Süveyş böhranı” zamanı Türkiyə İsraildəki səfirini geri çağırmış və İsraildən də eyni hərəkəti tələb etmişdisə də, gizli dairələr bunun taktiki hərəkət olduğunu bildirmişdilər. Belə ki, hər nə qədər Türkiyə “Fələstin məsələsi həll olunmayana qədər” İsraillə əlaqələrini düzəltməyəcəyini bildirsə də, hər iki dövlət Yaxın Şərq regionunda yerləşdiyindən və burada baş verən hər hansı hadisə onlara eyni dərəcədə təsir etdiyindən ortaq maraqlar Türkiyə və İsraili yenidən bir araya gətirmişdi. Belə ki, 1958-ci ildə İraq kralı Faysal hərbiçi Əbdülkadir Kasım tərəfindən devrilmişdi. Bu hadisədən sonra İsrail dövləti özünü ətrafı sarılmış kimi hiss edir, Türkiyə hökuməti isə Kasım hökümətinin Molla Mustafa Bərzaniyə silahdaşları ilə birlikdə İraqa qayıtmağa icazə verməsindən narahat idi. Nəticə etibarı ilə yenə də “”böyük qardaş” ABŞ-ın tədqiqat bürosu olan CİA-in təşəbbüsü ilə MOSSAD (İsrail), MİT (Türkiyə) və SAVAK (İranın gizli polisi) arasında İsrai baş naziri David-Ben–Gurionla xarici işlər naziri Golda Meirin başçılığı ilə gizli tədqiqatlarla bağlı “Çevrəsəl Pakt” imzalandı” [1, 125]. Beləliklə, Yaxın Şərq regionunda ərəb millətçiliyinə (nasirçiliyə), “Kürd təhlükəsinə” və Sovet İttifaqına qarşı şah rejimi-oliqarxiya-sionizmin birgə ittifaqı qurulmuş oldu. Hətta bundan sonra MOSSAD Kipr türklərinə yunanlara qarşı hərbi təlim də keçirtmişdi.

1967-ci il İsraillə ərəb dövlətləri arasında baş vermiş növbəti “Altı günlük müharibə” zamanı Türkiyə neytrallığını elan etsə də, bir növ ərəb dövlətlərini dəstəkləyən siyasət yeritmiş, NATO-dakı hərbi qüvvələrinə bu ölkələrə qarşı hücum etməyə imkan verməmiş, hətta müharibə zamanı İordaniya, Misir və Suriyaya qida yardımı göndərmişdi. BMT TŞ-nin müharibə ilə bağlı çağırdığı sessiyada Türkiyə Fələstinin lehinə səs vermiş, İsrail dövlətindən Sinay yarımadasını Misirə, Colan təpələrini Suriyaya qaytarmasını tələb etmişdi. “1967-ci ildə baş nazir S.Demirəl və İordaniya kralı Abdullah Ankarada etdikləri birgə çıxışda İsrailin işğal etdiyi torpaqlardan geri çəkilməsini və Qüdslə bağlı BMT qərarlarını yerinə yetirməsini tələb etdilər” [5]. Bundan sonra S.Demirəl SSRİ-yə etdiyi səfərində də dövlətinin İsrailin işğal siyasətinə qarşı olduğunu bildirmişdi. Ümumiyyətlə, bu tarixi dövr Türkiyənin ilk dəfə İsraillə ərəb dövlətləri arasında bərabər siyasət yeritdiyi dövr kimi səciyyələndirilməlidir.

1973-cü ildə ərəb dövlətləri İsrailin, daha doğrusu yəhudi xalqının müqəddəs bayramı olan “Yam-Kippur” zamanı bu dövlətə hücum edən və bu səbəbdən də tarixə “Yam-Kippur müharibəsi” kimi düşən müharibə əsnasında

BŞ İsrailə yardım etmək məqsədi ilə Türkiyənin İncirlik hərbi hissəsindən istifadə etmək istəmiş, lakin Türkiyə hökumətinin sərt reaksiyası ilə qarşılaşmışdı. Bunun əvəzində isə Türkiyə rəsmiləri ərəb dövlətlərinə ərzaq və hərbi sursat daşıyan Sovet təyyarələrinə öz hava yollarını açmışdı" [4]. "Yam-Kippur" müharibəsindən sonrakı illərdə Türkiyə Cümhuriyyəti həm ərəb dövlətləri ilə, həm də İsraillə əlaqələrini davam etdirirdi. ABŞ-ın təşəbbüsü və bilavasitə səyləri nəticəsində 70-ci illərin II yarısında yumşalmağa və həll olunmağa doğru gedən Yaxın Şərq münaqişəsi zəminində Türkiyə İsraillə gizli tədqiqatlarla bağlı əməkdaşlığı davam etdirmiş və 1974-cü ildə Türkiyə Kipri işğal etdiyi zaman iki ölkənin kəşfiyyatı birgə işbirliyini davam etdirmişdilər. Eyni zamanda B.Ecevit iqtidarı dövründə, "1975-ci ilin noyabrında BMT-də ərəb ölkələri tərəfindən hazırlanmış "sionizm irqçiliklə eyni bərabərdədir" qərar layihəsi Türkiyə hököməti tərəfindən dəstəklənmişdir. Bundan başqa, həmin ildə iqtidar FAT-ı Fələstin xalqının təmsilçisi kimi tanımış, 1978-ci il Kemp-Devid danışıqlarından sonra FAT-ın Ankarada bürosu açılmışdır" **[5].** Həmin illərdə Türkiyə İsraildən həm də Safir raket ucluqları, Hetz tankları və Uzi marka silahları almışdı.

Faktlardan da göründüyü kimi, sözügedən dövrdə Türkiyə hökuməti müəyyən baxımdan İsraillə əlaqələrini möhkəmləndirir, lazım gəldikdə isə Fələstin məsələsi ilə bağlı haqlı olaraq işğalçı dövləti qınayırdı. Bununla bağlı sübutların siyahısını genişləndirmək olar. Belə ki, 1979-cu il İsrail-Misir sülh danışıqları ərzində İsraildən 1967-ci il sərhədlərinə qayıtmağı və FAT-ı danışıqlar masasına daxil etməyi tələb edən Türkiyə yəhudi dövləti ilə münasibətlərini açıq şəklə məhz bu dövrdə, daha dəqiq desək, 80-cı illərdə gətirmişdi; 1987-ci il, I İntifada zamanı İsrailin həyata keçirdiyi şiddətin Türkiyə rəsmiləri tərəfindən qınanmasına və 1988-ci ildə Fələstin dövlətinin tanınmasına baxmayaraq, 1982-1983-cü illər MİT-MOSSAD işbirliyinin sıxlaşdığı və möhkəmləndirildiyi dövr kimi qiymətləndirilmişdi. Bunun da əsas məqsədi Liviyada fəaliyyət göstərən ASALA-nı MOSSAD-ın köməyi ilə likvidasiya etmək, erməni məsələsi ilə bağlı "soyqırım" günahlandırılmasında İsrailin dəstəyindən istifadə etmək idi. Bütün bunlar bir daha belə deməyə əsas verirdi ki, Türkiyə ilə İsrail hər baxımdan bir-birilərinə lazım olduqlarından və bu səbəbdən də asılı olduqlarından münasibətlərini heç vaxt qıra bilməzdilər, əksinə, bu münasibətləri möhkəmləndirmək və inkişaf etdirmək lazım idi.

**ƏDƏBİYYAT**


1. Fraser T.G., Murray D., "America and the world since 1945". New York: Palgrave Macmillan, 2002 – 323 pages
2. Sachar, Howard M., "A History of Israel: From the Rise of Zionism to our Time". New York: Alfred A.Knopf, Inc., 2006 - 1153 pages
3. http://www.bilgestrateji.com/store/dergi2/Erdem.pdf
4. http://www.danielpipes.org/300/the-real-new-middle-east
5. http://www.geleceksosyalizm.net/turkiye-israil-filistin-iliskilerinin-tarihi-t821.html
6. http://suriye.ihh.org.tr/turkiye/sondonem/turkiyeisrail/turkiyeisrail.html

## ИСТОРИЯ ТУРЕЦКО-ИЗРАИЛЬСКИХ ОТНОШЕНИЙ И США

**А.З.АББАСОВА**

**РЕЗЮМЕ**

Статья посвящена исследованию истории турецко-израильских отношений и влияния политики США на турецко-израильские отношения в сфере Ближневосточного конфликта. Находящейся на стыке Евразии и Африки Ближний Восток имеет важное геостратегическое значение, так как является средоточием сухопутных, морских и воздушных сообщений Старого Света. США, являющейся основной сверхдержавой нашего времени и основным силовым центром мировой политики вынуждена проводить сбалансированную политику в отношении своих союзников на Ближнем Востоке–Израиля и Турции, которые занимают противоположные позиции в Ближневосточном конфликте. В статье в основном изучается история турецко-израильских отношений и основные направления политики США в отношении Турции и Израиля для осуществления своих стратегических интересов в регионе.

**Ключевые слова:** Турецкая Республика, Израиль, Соединенные Штаты Америки, Ближневосточный конфликт, взаимоотношения

## THE HISTORY OF TURKEY-ISRAEL RELATIONS AND THE USA

**A.Z.ABBASOVA**

**SUMMARY**

The article is dedicated to the investigation of the history of Turkey-Israel relations and the influence of the USA to the Turkey-Israel relations in the context of the Middle East conflict. The Middle East, which is situated in the intersection of Eurasia and Africa possesses important geostrategic essence, as it is in the centre of essential roads of these continents. The USA, which is the most powerful state of the world in nowadays has to contuct stabilised policy about her allies in the Middle East - Turkey and Israel that possess contreversial attitude against each other in the Middle East conflict. Generally, the article investigates the history of Turkish-Israeli relations and major directions of the policy of the USA on the attitude of these relations in order to realize her own interests in the above mentioned region as well.

**Keywords:** The Republic of Turkey, Israel, The United States of America, The Middle East conflict, mutual relations